**Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyası Azərbaycan Respublikasının təhlükəsizlik və dövlətçilik tarixində xüsusi yer tutan təhsil müəssisəsidir. Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan Akademiya Prezident İlham Əliyevin rəhbərliyi ilə beynəlxalq səviyyədə nüfuz qazandı.**



# Dövlətçiliyə xidmət, çətin və şərəfli vəzifə

Heydər Əliyev Azərbaycanın milli təhlükəsizlik sisteminin yaradıcısı kimi bu sahənin inkişafına yeni yanaşmalar gətirmişdi. Onun uzaqgörən siyasəti nəticəsində ölkənin təhlükəsizlik sistemi yalnız daxili sabitliyi təmin etməklə yanaşı, həm də xarici təhdidlərə qarşı möhkəm müdafiə mexanizmləri yaradır. Prezident Heydər Əliyev 1998-ci il 1 dekabr tarixli Sərəncamı ilə Dövlət Təhlükəsizliyi Xidmətinin Akademiyasının yaradılması dahi liderin dövlət idarə etməsindəki strateji addımlarından biridir. Akademiyanın yaradılması ilə ölkəmizin təhlükəsizlik sahəsində müstəqil kadr ehtiyatı formalaşdırıldı, dövlət təhlükəsizlik orqanlarının fəaliyyətinə elmi əsaslar gətirildi, beynəlxalq standartlara uyğun tədris mühiti yaradıldı. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2005-ci il 20 dekabr tarixli Fərmanı ilə Akademiyaya dahi şəxsiyyət Heydər Əliyevin adının verilməsi təhlükəsizlik orqanlarının tarixinə növbəti əlamətdar hadisə olaraq yazıldı.

Ulu öndər Azərbaycanın təhlükəsizlik məsələlərində mütəxəssislərin hazırlanmasını təkcə texniki bacarıqlarla məhdudlaşdırmırdı. Onun üçün vətənpərvərlik, dövlətə sədaqət və milli maraqları qorumaq prinsipləri bu peşənin ayrılmaz hissəsi idi. Akademiyaya Heydər Əliyevin adının verilməsi də bu ali dəyərləri yaşatmaq məqsədi daşıyırdı.

Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin dövlətçilik irsini müasir dövrün çağırışlarına uyğun inkişaf etdirərək Akademiyanın beynəlxalq səviyyədə tanınan bir təhsil mərkəzinə çevrilməsinə şərait yaratdı. Həyata keçirilən islahatlar Akademiyanın fəaliyyətini daha da genişləndirdi və strateji rolunu gücləndirdi. Bu gün Akademiyada müasir təhlükəsizlik yanaşmalarına uyğun proqramlar hazırlanaraq həm nəzəri, həm də praktiki biliklər dərindən öyrədilir. İnnovativ texnologiyalar və analitik təhlil metodlarının tətbiqi kadrların hazırlığını beynəlxalq səviyyəyə yüksəldib. Akademiya xarici ölkələrin təhlükəsizlik qurumları ilə də əməkdaşlıq edir. Bu, gənc kadrların dünya standartlarına uyğun təhsil almasını və qlobal təcrübədən faydalanmasını təmin edib. Akademiyada informasiya təhlükəsizliyi, kiber müdafiə, iqtisadi təhlükəsizlik və digər problemlər üzrə elmi-tədqiqat fəaliyyətləri genişləndirilib. Bu, ölkənin strateji maraqlarına xidmət edir və beynəlxalq mövqeyini gücləndirir. Cənab İlham Əliyev milli təhlükəsizliyi dövlət siyasətinin prioriteti müəyyən edərək Akademiyanın bu sahədə mühüm struktur kimi formalaşmasına xüsusi diqqət ayırıb. Akademiyanın məzunları Azərbaycanın siyasi, iqtisadi və hərbi təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayırlar.

Heydər Əliyevin ideyaları və cənab İlham Əliyevin islahatçı yanaşmaları sayəsində Akademiya təkcə milli təhlükəsizliyin təminatında deyil, həm də dövlətçilik ideologiyasının qorunmasında mühüm rol oynayır. Akademiyanın məzunları Heydər Əliyevin irsini yaşadaraq ölkə başçısı İlham Əliyevin dövlətçilik kursuna dəstək verir. Burada yetişən mütəxəssislər Azərbaycanı daxili sabitlik, xarici təhlükəsizlik və milli maraqların müdafiəsi sahəsində qlobal liderlərdən birinə çevirməkdədirlər.



Dövlət Təhlükəsizlik Xidmətinin Heydər Əliyev adına Akademiyası Azərbaycanın təhlükəsizlik sahəsində gələcəyini təmin edən bir qurum olaraq Prezident İlham Əliyevin dəstəyi ilə yeni mərhələyə qədəm qoyur. Milli və beynəlxalq təhlükəsizlik çağırışlarına cavab verən Akademiya keçmiş irsi qorumaqla, müasir dövrün tələblərinə uyğunlaşaraq Azərbaycan dövlətinin möhkəmləndirilməsinə xidmət edir.

**Tacir SADIQOV,**
**"Respublika".**

Respublika.- 2024.- 1 dekabr (№ 265).- S.7.